# Kredo

BARIŞDIR TARİX İNSANIN ÖLÜM VƏ İNAM UĞRUNDA

Müstəqil ictimai-siyasi, publisistik qəzet | № 26 (1006) 29 iyul 2020-ci il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır


# QURBAN BAYRAMINIZ MÜBARƏK!

## Könlümüzün sarayı saxlayar abad eşqi,
## Əzmimizi qoruyar hünər eşqi, ad eşqi.

# CƏBHƏNİN ÖN XƏTTİNDƏ

## *Jurnalist, yazıçı-publisist Nəzirməmməd Zöhrablıya üzrxahlıq məktubu*



Əziz qardaşım Nəzirməmməd, ...sənə şifahi müraciətimdəki tərzi saxlayıram... sənin dövrün bəlası olan virusa yoluxaraq xəstələnmə xəbərini facebookdan bir dəqiqə bundan qabaq oxudum. Nəzirməmməd Zöhrablı sağalıb.

Az qala sarsılmışdım. Necə olub ki, sən xəstələnmisən mənim xəbərim olmayıb? Kimlər bilibsə onlar səninlə əlaqə saxlayblar. Amma, Xeybər Göyyallı, Nadir Diridağlı, İlham Zeynallı... onlar mənə də bildirə bilərdilər. Təəssüf edirəm və əlbəttə ki, yenə günahı özümdə görürəm. Axı neçə vaxt idi ki, sən gözümə görünmürdün. Gərək mən səninlə maraqlanaydım.

Əzizim Nəzirməmməd Zöhrablı, sən təkcə mənim dostum deyilsən, Azərbaycan xalqının bağrından qopan, ruhuna doğma olan qələm əhlisən, jurnalistsən, yazıçı-publisistsən ...son kitabların bu gün Azərbaycan evlərində Qarabağ dərsliyi kimi saxlanılır.

Mən inanıram ki, heç bir xəstəlik sənə qalib gələ bilməz. Çünki ruh etibarilə çox sağlamsan, sənin təbiətində Vətən və millət sevgisi əsas güc mənbəyidir. Yaradcılığını, qaynar insanimühitini qidalandıran da elə bu tükənməz qaynaqdır.

***Nəzirməmməd Zöhrablı (Nəzirməmməd Cankişi oğlu Quliyev) 1965-ci ildə Masallı rayonunun Qədirli kəndində anadan olub. 1988-1993-cü illərdə M.Rəsulzadə adına Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. 1993-cü ildən etibarən "Odlar Yurdu", "Respublika", "Panorama", "Yeni Zaman", "Vətəndaş Həmrəyliyi", "Xəzər" qəzetlərində, "AzTV", "ANS" TV telekanallarında müxbir, şöbə müdiri, redaktor, "Loğman" Tibb Texnikumunun mətbuat xidmətinin rəhbəri, Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Asosiyası (AVCİYA) tərkibində Söz Azadlığının Müdafiə Fondunun (SAMF) layihə kordinatoru, həmçinin "media üzrə eksperti ictimai vəzifəsi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Xatirə kitabı redaksiyasında redaktor vəzifələrində işləyib.***

***Yüzlərlə publisistik məqalənin, "Üçrəngli bayrağa bürünmüş şairə", "Hər yarpaq bir sözümüz" kitablarının müəllifi, "Həsən bəy Zərdabi" və "Əkinçi", "Şuşa və Ağdamın Turizm Potensialı", "Qarabağ muzeyləri" ensiklopedik-məlumatkitabı" kitablarının həmmüəllifidir.***

***Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Xatirə Kitabı Redaksiyasının layihəsi əsasında çap olunan "Gözlər yoldan yığılarmı..." müəllifin üçüncü kitabıdır. Tanınmış şair Musa Yaqubun "Dövrün dəyirmanı", "Sevgi şeirləri", "İndi bildim nağıldı...", "Gərək bu sözümü daşlara yazam", "Qaradaşın sədası", Moskvada yaşayan həmyerlimiz Elçin Qasanovun "Azəriqızı Yerevanda" və s. iri və kiçikhəcmli onlarla kitabın, həmçinin məşhur detektiv yazarlar Aqata Kristinin "Üç pərdəli faciə", Çingiz Abdullayevin "Əclafların kredosu", "Namərdin üslubu", "Qələbənin səcdəgahı", Misir yazıçısı Necib Mehfuzun "Yeni Qahirə", Fransa yazıçıları Mark Levinin "Hardasan", Frederik Beqbederin "Ona və Sellincer", Ukrayna yazıçısı Pavel Zaqrebelnının "Roksolana", ABŞ yazıçısı Stiven Kinqin "112263" Con Kennedi" kitablarının Azərbaycancaya tərcüməsinin redaktorudur.***

Sən hələ nə qədər kitablar yazacaqsan... Cəmiyyətmiz üçün, yeni nəsillərin mənəvi cəhətdən sağlam böyüməsi üçün nə qədər dəyərli yazılar yazacaqsan. Sən hələ həyat romanını yazmaq missiyasına borclusan...

Ceyhun Zallı mən diktə etdikcə yazır. Bilirəm ki, diktəni yazmaqdan xoşu gəlmir. Amma bütün çətinliklərə baxmayaraq yazır, çünki sənə sevgisi var. Hər dəfə də səninlə görüşümdə Ceyhunu, Amuru, Aralı, Aluru soruşursan. Bütün bunlar göstərir ki, biz ruhən əzəli doğmalarıq.

Yaşamağın dəyəri! Bunu hər kəs bir cür xarakterizə edər.

Bəli, bu hökmə hərə bir cür qiymət verir. Ancaq məndən, yaşamağın dəyərinə örnək üçün bir neçə obrazı müasirlərim arasından göstərməyi tələb etsəydilər... Gəncliyimdən məni ağsaqqal bilən gənclik dostlarımı xatırlayardım. Əlbəttə, Elçin Kamalın, İlham Məmmədlinin, İlham Zeynallının, Xeybər Göyyalının, Rafiq Vəliyevin, Nadir Diridağlının, Tamxil Ziyəddinoğlunun... sırasında mütləq sənin də adını çəkərdim. Çünki bizim mənəvi dünyamızın, zamanı ayrılmazdır. Böyük filosof sərkərdə Həzrət Əli deyirdi ki, bizi doğmalaşdıran ən qüdrətli güc zamandır. Ruhu doğmalar babasından daha yaxın qohumdur.

Əzizim Nəzirməmməd Zöhrablı, sevnirəm ki, evindəsən, övladlarının yanındasan... Ən başlıcası, qalibsən, nümunəsən... örnəksən.

Ən azı qələbənlə mənim üçün də təskinliksən.

Yaşa, yaz, yarat!..

**P.S.** *Biləsən ki, son günlər... yəni aylar, mənimçün də ağır keçir, sarsıntılar, gərginliklər... Qarabağ savaşı, şəhidlik aləmi... Ağrılarmın hardan keçdiyini yaxşı bilirsən.*

**P.S.S.** *Daha güzəştə gedən deyiləm... karantin qaydaları götürülən kimi sizi mütləq bir yerə yığacam... özün bilirsən kimləri.*

*Öpürəm, bağrıma basıram...*

**Dostluğundan qürur duyan:**

***Əli Rza XƏLƏFLİ***
***28.07.2020.***